Tarix və onun problemləri, №1-2 2009

**ELMİRA RƏHİMOVA**
*125 saylı məktəbin Tarix müəllimi, «İlin ən yaxşı müəllimi» Müsabiqəsinin qalibi*

# 70 YAŞIN ZİRVƏSİNDƏ

Hər bir millət dünyada özünün görkəmli alimləri və yaradıcı şəxsləri ilə tanınır. Ölkənin iqtisadi inkişafı onun əhalisinin intellektual səviyyəsindən asılıdır. Bu isə ilk növbədə təhsil sisteminin vəziyyəti ilə əlaqədardır. Ulu öndərimiz Heydər Əliyevin dediyi kimi «Təhsil millətin gələcəyidir».

18 il öncə müstəqilliyə qədəm qoymuş respublikamızın gələcək inkişafı da məhz təhsilin ilk pilləsi olan orta məktəblərdən keçir. Bu məktəbləri bitirən yeniyetmələr müəyyən peşələrə, ixtisaslara yiyələnib ölkəmizin iqtisadi potensialının artırılmasında yaxından iştirak edirlər.

Dünyanın bir çox ölkələrini maliyyə böhranı bürüdüyü bir vaxtda keyfiyyətli təhsilə, maddi kapitalın insan kapitalı ilə əvəz olunmasına xüsusi ehtiyac yaranır. Bu da gənc nəslin təlim-tərbiyəsinə daha diqqətlə yanaşmaq tələbini ortaya qoyur. Heç də təsadüfi deyildir ki, 2009-cu il «Uşaq hüquqları ili» elan edilmişdir. Bununla əlaqədar məktəblərimizin üzərinə böyük məsuliyyət düşür.

Respublikamızda təlim-tərbiyə sahəsində öz dəsti-xətti ilə seçilən, özünəməxsus ənənələri olan məktəblər çoxdur. Belə məktəblərdən biri də Əzizbəyov rayonunda, mavi gözlü Xəzərin sahilində yerləşən Əfqan Əliyev adına 125 saylı orta məktəbdir. Bu günlərdə məktəb öz 70 illik yubileyini böyük fərəh hissi ilə qarşılamağa hazırlaşır. Həmin dövr ərzində qazandığı nailiyyətlərə, əldə etdiyi uğurlara görə məktəbin həqiqətən də, öyünməyə haqqı var. Demək olar ki, iqtisadiyyatımızın, mədəniyyətimizin elə bir sahəsi yoxdur ki, oradan 125 saylı məktəbin məzunlarının səsi gəlməsin. Onlardan bəziləri təkcə respublikada deyil, dünyada tanınmış şəxslərdir. Doğrudan da ulu öndərimizin dediyi kimi «Görkəmli şəxsiyyətlər xalqın zəkasını, elmini, mədəniyyətini, mənəviyyatını dünyaya nümayiş etdirir.» Belə tanınmış məzunların bəzilərinin adlarını sadalaya bilərik: vaxtilə Moskvada yaşamış və işləmiş məşhur travmatoloq, ortoped, tibb elmləri doktoru, professor Aydın İmaməliyev, Zaqafqaziyada brusellioz xəstəliyini öyrənən ilk ilk azərbaycanlı qadın alim Gülzar İmaməliyeva, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Milli məclisin deputatı, Beynəlxalq İqtisadçılar İttifaqının vitse-prezidenti Ziyad Səmədzadə, Əczaçılıq elmləri doktoru, professor, Azərbaycan Tibb Universitetinin Əczaçılıq kafedrasının müdiri, respublikanın əməkdar müəllimi və əməkdar əczaçısı Hafiz Əliyev, Azərbaycan Texniki Universitetinin professoru Şamil Səmədzadə, Azərbaycanda ilk ixtioloq-alim Ələkbər Əliyev, Neftçilər xəstəxanasının baş həkimi olmuş tibb elmləri doktoru Fəxrəddin Cavadov, Bakı Dövlət Universitetinin Türk və Qafqaz xalqları tarixi kafedrasının müdiri, tarix elmləri doktoru, «Sara Xatun» mükafatına layiq görülmüş professor Əsməd xanım Muxtarova, Azərbaycan Dövlət Neft Akademiyasının dosenti olmuş Gərşivəz Quliyev, Bakı Dövlət Universitetinin türkoloq alimi, dosent Gülxanım Vəliyeva, Əməkdar müəllim Heydər Eyvazov və Tamilla Muradova, «Boz Oğuz» nəşriyyat evinin təsisçiləri, ensiklopediya işi sahəsində tanınmış mütəxəssislər Rəhmağa və Validə xanım İmaməliyevlər, Azərbaycan Dövlət Radiosunda uzun illər rejissor işləmiş İsmayıl Xudaverdiyev, görkəmli sənətçi Nadir Axundov, məşhur foto-müxbir Üzeyir Muradov, xalq artisti tarzən Firuz Əliyev, kəndin axundu, din, əxlaq, mədəniyyətimizlə bağlı çoxsaylı kitabların müəllifi Hacı Soltan Əlizadə, Hacı Zeynalabdin Tağıyev mükafatı laureatı, xeyriyyəçi-metsenat Nadir Quliyev və

oğlu iş adamı Bəsrət Quliyev, milli qəhrəman Nurəddin İbrahimov və adları bu kiçik yazıya sığmayan neçə-neçə məzun...

Bağban öz meyvəsi ilə, ana öz övladları ilə fəxr etdiyi kimi 125 saylı məktəb də belə yetirmələri ilə qürur duyur. Məktəbin əsası dəhşətli repressiya illərində, yəni 1937-ci ildə qoyulsa da, ilk məzunları həyata vəsiqəni 1939-cu ildə almışlar. O gündən indiyə qədər məktəbi minlərlə məzun bitirmişdir.

125 saylı məktəbin təkcə öz keçmiş uğurları ilə deyil, bu günü ilə də öyünməyə haqqı var. Hər il qəbul imtahanlarında 40%-dən çox göstəricisi olan bu məktəbin məzunları respublikamızın ali məktəb ocaqlarında qazandıqları uğurlarla doğma məktəbin başını ucaltmışlar. Fərid Abuzərov, Tural Məmmədov, Bəhruz və Sənan Səfərovlar, Aynur Məmmədova, Nərmin Əlizadə, qafarov Surac, Məlikli Tofiq, Mövsümov Yaqub, İsmayılova Müjgan, Əliyeva Dürdanə, Quliyeva Aytəkin, Əliyeva İlahəxanım, Rəhimova Xədicə, Mövsümova Fəridə və digərləri belə məzunlardandır.

Bu uğurların qazanılmasında təbii ki, məktəb müəllimlərimizin zəhməti də az deyil. Maraqlısı budur ki, müəllim kollektivinin 90%-i, eləcə də məktəbin direktoru Zeynəb Əlieyeva və dərs hissə müdiri Zabitə Xudaverdiyeva da elə məktəbin məzunlarıdır. Mehriban xanımın bilavasitə rəhbərliyi ilə Heydər Əliyev Fondunun həyata keçirdiyi «Yeniləşən Azərbaycana yeni məktəb» layihəsi çərçivəsində 2007-ci ildə əsaslı təmir olunmuş məktəb 70 illik yubileyini alnıaçıq, üzüağ qarşılayır.

Budur, bayram libasına bürünmüş məktəb 12 aprel gününü böyük səbirsizliklə gözləyir. Məktəb bayramsayağı bəzədilmiş, məktəbin tarixini və uğurlarını əks etdirən stendlər və bukletlər, qonaqlar üçün dəvətnamələr, yadigar döş nişanları hazırlanmış və məktəb qapılarını qonaqların üzünə geniş açmışdır.

«Müəllim vəzifəsi ona görə şərəflidir ki, o, cəmiyyət üçün ən dəyərli, ən bilikli, zakalı, tərbiyəli, vətənpərvər vətəndaşlar yetişdirsin» - demişdir Heydər Əliyev.

İnanırıq ki, 70 yaşın zirvəsinə çatmış 125 saylı məktəb yenicə qədəm qoyduğumuz XXI əsrdə respublikamız üçün belə dəyərli vətəndaşlar, mütəxəssislər yetişdirəcəkdir.

70 yaşın mübarək, doğma 125 saylı məktəb!